**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№284/6** **27 dekabr 2016-cı il**

**Azərbaycan Respublikası Auditorlar Palatasının Şurası yanında komitələrin yeni strukturu barədə**

“Azərbaycan Respublikasında auditor xidmətinin inkişaf Konsepsiyasında (2012-2020-ci illər)” nəzərdə tutulmuş tədbirlərin icrasının daha çevik və keyfiyyətli həllini təmin etmək və qabaqcıl xarici təcrübə nəzərə alınmaqla Auditorlar Palatasının Şurası yanında fəaliyyət göstərən komitələrin işlərini təkmilləşdirmək məqsədilə Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Auditorlar Palatasının Şurası yanında aşağıdakı tərkibdə yeni komitələrin yaradılması məqsədəmüvafiq hesab edilsin:

I. Keyfiyyətə nəzarət komitəsi;

II. Auditorların peşə etikası və üzvlük komitəsi;

III. Kadr hazırlığı və gənclərlə iş üzrə komitə;

IV. Qanunvericilik və hüquqi məsələlər üzrə komitə;

V. Beynəlxalq standartlar və metodiki təminat komitəsi;

VI. Beynəlxalq əlaqələr və xarici təşkilatlarla iş üzrə komitə;

VII. Milli auditə dəstək və məcburi audit üzrə komitə;

VIII. Dempinq və haqsız rəqabətə qarşı mübarizə üzrə komitə.

2. Auditorlar Palatası Şurasının 2014-cü il 10 sentyabr tarixli 254/1 nömrəli qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Auditorlar Palatasının Şurası yanında yeni komitələrin yaradılması haqqında” qərarı qüvvədən düşmüş hesab olunsun.

3. Bu qərarın mətninin Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**